**Aysel Ayaz qızı Ağabalayeva** [126]

# C.CABBARLININ "SEVİL" ƏSƏRİNDƏ İCTİMAİ DƏYİŞİKLİKLƏRİN QADIN PSİXOLOGİYASINA TƏSİRİ

**Giriş.** Dünya sivilizasiyasında qadının mövqeyi hər zaman xüsusi olub. Həm Azərbaycan,həm dünya ədəbiyyatı qadın obrazları ilə zəngindir. Qadın azadlığı məsələsi insanları, cəmiyyətləri, dövlətləri, dinləri həmişə düşündürmüş,bu mövzuda əsərlər yazmağa sövq etmişdir. Hər dövrün bu məsələyə özünəməxsus yanaşması olsa da, problem bu günün özündə də lazımi qaydada həllini tapmayıb. Bu səbəbdən qadın azadlığı məsələsi hələ də böyük araşdırmalar, tədqiqatlar mövzusudur. Günümüzdə də bu problem aktualdır. XX əsrin əvvəllərində qadın azadlığı məsələsini ən ciddi şəkildə qaldıranlardan biri böyük ədib – dramaturq, şair, nasir, teatrşünas, kinoşünas Cəfər Cabbarlı olub.

**Əsas hissə.** Cəfər Cabbarlı (1899-1934) Azərbaycan ədəbiyyatının önəmli şəxsiyyətlərindən biridir. Şeir, hekayə və xüsusilə pyes janrında yazdığı ədəbi əsərləri ilə tanınan yazıçı əsərlərində sosial mövzulara geniş yer verməsi ilə seçilir. O, cəmiyyətdə geniş yayılmış adət-ənənələrin çatışmazlıqlarını tənqid edərək ölkədə sosializm çərçivəsində müasir və inkişafyönlü düşüncənin formalaşmasına şərait yaratmağa çalışmış və bununla da Azərbaycan ədəbiyyatının və teatrının simvolik şəxsiyyətlərindən birinə çevrilmişdir. Onun əsərləri Azərbaycanda dərs kitablarına daxil edilmiş, universitetlərdə tədris olunmuş, elmi araşdırmaların mövzusuna çevrilmişdir.

Azərbaycan ədəbiyyatının ən mühüm dram yazıçılarından biri olmaqla yanaşı, Azərbaycanda sosialist cəmiyyətin inkişafında əhəmiyyətli mövqeyə malik olmuşdur. Sosialist ideologiyası altında formalaşmaqda olan yeni cəmiyyəti ruhlandırmaq üçün əsərlərində cəhalətə və dinə qarşı mübarizə aparır. O, "sənət cəmiyyət üçündür" prinsipini müdafiə edir. Yazıçıya görə, hər şey cəmiyyətin rifahı naminə olmalıdır.Nəticə etibarilə, dram yazıçısı Cəfər Cabbarlı Azərbaycan teatrına və ədəbiyyatına, cəmiyyəti maarifləndirməyi hədəfləyən yeni fikirlər gətirərək bir rəhbər rolunu oynayır.

Cəfər Cabbarlı yaradıcılığında qadın azadlığı məsələsi mühüm yer tutur. O, əsərlərində qadınların cəmiyyətdəki vəziyyətini, onların hüquqsuzluğunu və azadlıq uğrunda mübarizəsini əks etdirmişdir. Azərbaycan qadını cəmiyyətimizin milli-mənəvi dəyərlərinin formalaşmasında və inkişafında çox mühüm rol oynayıb. Ədəbiyyatımıza adlarını qızıl hərflərlə yazdırmış bir çox qadın var. C.Cabbarlının pyeslərində də qadınlar yeni cəmiyyət ideyasını təmsil edən obrazlardır. Onun əsərlərində qadının cəmiyyətdəki yerindən, öz hüquqları uğrunda mübarizə apararkən qarşılaşdığı çətinliklərdən və bu çətinlikləri aşaraq qazandığı uğurlardan bəhs edilir.Bu obrazlar azadlıq uğrunda mübarizə aparan güclü qadınlardır.

"C.Cabbarlı böyük tərbiyəçi olan sələflərinin əsərlərində dilə gətirdikləri qadına münasibət məsələləsini yeni əsrdə yaranan şəraitə uyğun olaraq bədii əsərə gətirdi, onun reallığının bədii dərkini ifadə edə bildi" (2). Cəfər Cabbarlının qadın azadlığı mövzusunda yazdığı əsərlər, bu gün də aktualdır və Azərbaycan ədəbiyyatında bu sahədə ən önəmli nümunələrdən sayılır.Onun əsərlərində əsas konfliktlər köhnə və yeni düşüncə tərzi arasında gedir.Əsərlərdə qəhrəmanlar təkamül edir, mübarizə aparır və inkişaf edirlər.

Cabbarlını narahat edən və onun həyatının əsas məqsədinə çevrilən məsələlərdən biri "yeni cəmiyyət qurmaq" ideyası onun yaradıcılığının əsas qayəsidir."Sevil" və "Almaz" pyeslərində qadın qəhrəmanlar ənənəvi basqılara qarşı mübarizə aparır və öz haqqlarını qoruyurlar. "Böyük sənətkar "Sevil" pyesində Azərbaycan mühitinin qadına, ailəyə münasibəti ilə bağlı problemləri, milli koloritləri diqqətdə saxlayaraq səhnəyə gətirmişdi" (3). Cəfər Cabbarlının "Sevil" (1928) pyesi qadın azadlığı və cəmiyyətin dəyişməsi mövzusunda yazılmış ən mühüm Azərbaycan dramaturji əsərlərindən biridir. Əsərin baş qəhrəmanı Sevil ənənəvi, patriarxal cəmiyyətin basqıları altında yaşayan bir qadından, öz hüquqlarını dərk edən və azadlığını qazanan güclü bir şəxsiyyətə çevrilir.

Sevilin keçdiyi azadlıq yolunu təhlil edək. Cəfər Cabbarlının "Sevil" pyesindəki obrazlar fərqli psixoloji xüsusiyyətlərə malikdirlər və onlar əsərin əsas ideyasını-qadın azadlığı və cəmiyyətin dəyişməsini əks etdirmək üçün yaradılmışdır. Hər bir obrazın xarakteri və daxili dünyası onların mövqelərinə və həyat tərzlərinə uyğun inkişaf edir. Əsərin əvvəlində Sevil tipik Şərq qadınıdır: ailədə ərinə,ailəsinə tamamilə tabe olan, səsi çıxmayan, çarşab arxasında gizlənən bir qadındır. Əri Balaş onu sevmir, onu cahil və zəif hesab edir, başqa bir qadınla Dilbərlə münasibət qurur.Balaşın onu tərk etməsi Sevil üçün bir dönüş nöqtəsi olur.Köhnə ənənələrin onun həyatını məhv etdiyini anlayır və bu çərçivədən çıxmaq qərarına gəlir. Sevil çarşabını cırıb atır, bu isə onun yalnız fiziki deyil, həm də mənəvi azadlığının simvoluna çevrilir.

Bu hadisə qadınların cəmiyyətdə bərabər hüquqlu olmasının zəruriliyini göstərən ən güclü səhnələrdən biridir.Sevil əvvəlki itaətkar, qorxaq qadın deyil, işləyən, müstəqil və cəmiyyətdə öz yerini tapan bir insandır. O, artıq başqalarının kölgəsində qalmır, öz həyatını idarə edə bilir.

Daxili dünyasında yaranan qarışıqlıq və ağrı onun psixoloji inkişafına və yeni, güclü bir qadın obrazına çevrilməsinə zəmin yaradır. Sevilin hekayəsi təkcə fərdi bir insanın dəyişimi deyil, bütövlükdə Azərbaycan qadınının azadlıq uğrunda mübarizəsinin əksi kimi qəbul edilir. Cabbarlı bu pyeslə göstərir ki, qadınlar təhsillə, müstəqil həyat qurmaqla və öz hüquqlarını tələb etməklə cəmiyyətin inkişafına töhfə verə bilərlər.

"Sevil" pyesi Azərbaycan qadınının çarşabdan azad olub, iş həyatına və ictimaiyyətə qatılmasının bədii manifesti sayılır.Sevilin azadlıq yolu, qorxaq və itaətkar bir qadının güclü, öz ayaqları üstündə dayanan bir fərd

[126] Bakı Dövlət Universitetinin magistrantı, aysel.aghabalayeva@gmail.com

olmasının simvolik bir ifadəsidir. Bu, təkcə 1920-ci illərin Azərbaycanı üçün deyil, bu gün üçün də aktual bir mesajdır: qadınlar azad, savadlı və güclü olduqda, cəmiyyət də inkişaf edir.

"Sevil" əsərinin baş qəhramanı Sevil olsa da, Cabbarlının ideyalarını təmsil edən bir obraz kimi Gülüş təqdim olunur. "Sevili mübarizəyə səsləyən də məhz odur. Onun nitqindəki hər sözdə biz bunu görürük" (5).

Gülüş əsərdə təkcə xarakterin xüsusiyyətlərini əks etdirmir, eyni zamanda, onun dünyagörüşü və mübarizə ruhu ilə bağlı da mühüm mesajlar daşıyır. Cabbarlının yaratdığı Gülüş obrazı qadının cəmiyyətdəki yerini, hüquqlarını və yeni cəmiyyət qurulmasında göstərdiyi əzmkarlığı simvolizə edir. Bu obrazın üzərindəki güc və mübarizə ruhu Cabbarlının qadına və onun cəmiyyətdəki roluna verdiyi önəmi aydın şəkildə nümayiş etdirir.

Balaş tipik patriarxal düşüncəyə sahib bir insandır. O, əvvəlcə Sevilə sahib olduğu bir əşya kimi yanaşır. Yeni həyat axtarışına çıxsa da, nə köhnə dünyadan tamamilə ayrılır, nə də yeni dünyaya uyğunlaşa bilir. Balaş özünü müasir, Avropa düşüncəli bir insan kimi təqdim etsə də, əslində köhnə düşüncə tərzindən tam qopa bilmir. Qadın azadlığı ideyasına qarşıdır, çünki qadınların güclənməsi onun hakimiyyətini sarsıdır. O, qadın itaətkar olduqda özünü güclü hiss edir. Sevilin dəyişməsi və onun qarşısında sərbəst bir şəxsiyyət kimi dayanması Balaşın daxilindəki gücsüzlüyü üzə çıxarır.Onun ən böyük məğlubiyyəti isə Sevilin azad bir qadına çevrilməsini izləyərkən öz içində çöküş yaşamasıdır.

Cəfər Cabbarlının "Sevil" əsəri qadın azadlığı mövzusunu təkcə sosial və siyasi kontekstdə deyil, həm də psixoloji aspektdən dərin şəkildə araşdırır. Əsərin baş qəhrəmanı Sevilin daxili dünyası və onun keçdiyi psixoloji transformasiya, fərdi oyanış və şəxsiyyətin inkişafı baxımından təhlil edilə bilər. Əsərdə Sevilin psixoloji oyanışı müəyyən hadisələr və daxili böhran nəticəsində başlayır:

Sevilin həyatında baş verən kəskin dəyişikliklər, xüsusən də yaxın münasibətlərdəki xəyanət, onun özünü dərk etməsi üçün katalizator rolunu oynayır. Özünü dərk etmə mərhələsində Sevil, keçmişdə qəbul etdiyi rolları və məhdudiyyətləri sorğulayaraq, öz şəxsiyyətinin və hüquqlarının fərqinə varmağa başlayır.

Sevilin keçdiyi bu proses psixoloji azadlığın əldə edilməsi ilə nəticələnir. O, artıq keçmişdəki qorxu və təslimiyyət əvəzinə, özünü ifadə etmək və mübarizə aparmaq imkanını qazanır. Əgər biz "Sevil"i qadın azadlığı haqqında bir hekayə kimi oxumaq əvəzinə, onu şəxsiyyətin parçalanması və özünü tapmaq cəhdi kimi oxusaq, yeni bir yanaşma əldə edərik.Sevilin başına gələn hadisələri ənənəvi feminist bir çərçivədə yox, fərdin cəmiyyət içində təcrid olunması və özünütapma yolu kimi analiz etsək, əsərin fərqli səviyyələrini görə bilərik.

Cəfər Cabbarlının "Sevil" əsəri modernist cərəyan çərçivəsində yazılsa da, bu gün ona postmodern yanaşma tətbiq etməklə yeni perspektivlər açmaq mümkündür. Postmodern təhlil əsərin yalnız yazıldığı dövrdə deyil, həm də bu gün necə başa düşüldüyünə və yenidən interpretasiya oluna biləcəyinə diqqət yetirir. Əsərdə o, cəmiyyətin basqılarından azad olur, lakin yeni həyata başladıqdan sonra onun həqiqətən xoşbəxt olub-olmadığı bəlli deyil. Postmodern analiz burada mütləq qələbə anlayışını sorğulayır.

Sevilin keçdiyi yol varoluşçu (eksistensialist) bir perspektivdən də təhlil oluna bilər. O, əvvəl cəmiyyətin yaratdığı bir fiqur kimi yaşayır, lakin sonra özünün kimliyini və yerini sorğulamağa başlayır. Onun keçdiyi transformasiya yalnız kənar təsirlərlə (xəyanət, təhqir, cəmiyyətdən ayrılma) məhdudlaşmır. Əsər boyu onun daxili mübarizəsi, özünü dərk etmə prosesi və qərar qəbul etmə mərhələləri bir-birinin ardınca izlənilir.

Cəfər Cabbarlının yaratdığı Solmaz ("Od gəlini"), Sevil, Gülüş ("Sevil"), Firəngiz ("Oqtay Eloğlu"), Gülsabah ("Dönüş"), Almaz ("Almaz") kimi mübariz, yeni ideyaların daşıyıcıları olan qadınlar bizimlə birgə eyni cəmiyyətdə yaşayırlar. Yazıçının əksər hekayələri qadın adları ilə adlandırılmışdır.Ailədə, cəmiyyətdə əzilən, alçaldılan, hüquqları əlindən alınan qadını öz əsərinə gətirən ədib bu vəziyyətdən çıxış yolunu göstərir, bəzən isə bu ailədə bu cür qadınları məhv olmasını təsvir edirdi.

"C.Cabbarlını daima düşündürən, onun yaradıcılığından qırmızı xətlə keçən qadın emansipasiyası arzusu "Sevil" dramında öz bədii ifadəsini tapdı" (4). Bu əsəri metodiki yöndən təhlil edək. Məktəblərdə bu mövzu dərsliklərdə yer almasa da,sinifdənxaric oxu materialı kimi müəllim uşaqlara bu əsəri oxumağı tapşıra bilər. Cəfər Cabbarlının dramaturgiyası Azərbaycan teatrı və ədəbiyyatının inkişafında mühüm rol oynamışdır. Onun pyesləri həm sosial mesajları, həm də güclü bədii keyfiyyətləri ilə bu gün də aktualdır. Dramaturqun əsərləri cəmiyyəti dəyişdirmək və insanları düşündürmək məqsədi daşıyır, bu da onu klassik Azərbaycan dramaturqları sırasında önəmli bir mövqeyə yüksəldir.

Əsər qadınların cəmiyyətdəki rolunu, hüquqlarını və dəyərini vurğulayaraq şagirdlərdə qadınlara qarşı hörmət hissi formalaşdırır. Əsərdəki ictimai bərabərsizlik və ədalətsizlik nümunələri şagirdlərdə ədalət və bərabərlik anlayışının inkişafına kömək edir.Əsərin məzmununu şagirdlərin yaşına və maraqlarına uyğunlaşdırmaq lazımdır.Dərsdə müzakirə,debatlara yer vermək lazımdır.Şagirdlərin yaradıcılıq qabiliyyətlərini inkişaf etdirmək üçün müxtəlif yaradıcı tapşırıqlardan (esse yazmaq, rəsm çəkmək, səhnəciklər hazırlamaq və s.) istifadə etmək olar.Müasir texnologiyalardan (internet, videoçarxlar, təqdimatlar, interaktiv tapşırıqlar və s.) istifadə etmək,"Sevil" tamaşasından müəyyən fraqmentlər izlətmək mövzunu daha maraqlı və anlaşılan edəcək.

**Nəticə. "**Sevil" əsəri, Azərbaycan ədəbiyyatının tarixində mühüm bir yer tutmaqla yanaşı, metodika sahəsində də zəngin tədris materialı təqdim edir. Bu əsər qadın azadlığı, sosial dəyişikliklər və psixoloji inkişaf kimi mövzuları təkcə ədəbiyyat çərçivəsində deyil, həm də tərbiyəvi və metodik aspektlərdə tədris etməyə imkan verir. Əsərin tədrisində tənqidi düşünmə, sosial ədalət, psixoloji təhlil və etik müzakirələr ön planda olmalı və şagirdlərə müxtəlif fənlər üzrə dərin bilik və bacarıqlar qazandırılmalıdır.

**İstifadə edilmiş ədəbiyyat**

1. Cabbarlı C. Seçilmiş əsərləri. Bakı: Çaşıoğlu, 2004, 568 s.
2. Hacıyeva M. “Sevil” zamanın səsidir. Ədəbiyyat. – 2009. – 22 may. – s. 6-7
3. Məsimov T. Cəfər Cabbarlı yaradıcılığı milli dəyərlər xəzinəsidir. Azərbaycan. – 2014. – 9 avqust. – s. 7
4. Gülnarə Abbasova.Cəfər Cabbarlı yaradıcılığında qadın emansipasiyası.525-ci qəzet. – 2018. – 19 dekabr. – s. 7.
5. https://teatro.az/az/post/milana-orucova---cefer-cabbarli-yaradiciliginda-qadin-yeni-cemiyyet-ideyasinin---dasiyicisi-kimi-585
**Key words:** Female psychology, psychological analysis, realism
**Ключевые слова**: Женская психология, психологический анализ, реализм

**Summary**

Jafar Jabbarli’s “Sevil” is one of the most important and impactful works written on the topic of women’s liberation in Azerbaijani literature. By reflecting the changes in Azerbaijani society in the early 20th century, the disenfranchised status of women, and their struggle, it opened a new page in literature.Jafar Jabbarli’s “Sevil” is a powerful drama that symbolizes Azerbaijani women’s liberation and national awakening. The play depicts Sevil’s self-discovery against the backdrop of changing public consciousness and personal struggle, her resistance against the pressures of patriarchal society on women, and her fight for her rights. Even after being abandoned by her family, who remained loyal to traditional values, and the person she loved, Sevil maintains her identity and rises as an independent woman. The play highlights important topics such as women’s education, their role in society, and their free choices. “Sevil” also touches on broader issues such as national identity, modernization, and the impact of social changes on Azerbaijani society.

**Резюме**

“Севиль” Джафара Джаббарлы – одно из самых важных и значимых произведений, написанных на тему освобождения женщин в азербайджанской литературе. Отражая изменения в азербайджанском обществе начала XX века, бесправное положение женщин и их борьбу, он открыл новую страницу в литературе. “Севиль” Джафара Джаббарлы – это мощная драма, символизирующая освобождение азербайджанских женщин и национальное пробуждение. Пьеса изображает самопознание Севиль на фоне меняющегося общественного сознания и личной борьбы, её сопротивление давлению патриархального общества на женщин и её борьбу за свои права. Даже после того, как ее бросила семья, сохранившая верность традиционным ценностям, и любимый человек, Севиль сохраняет свою индивидуальность и поднимается как независимая женщина. В пьесе освещаются важные темы, такие как образование женщин, их роль в обществе и их свободный выбор. “Севиль” также затрагивает более широкие вопросы, такие как национальная идентичность, модернизация и влияние социальных изменений на азербайджанское общество.

**RƏYÇİ: dos. S.Abbasova**